**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 27**

**Bakı şəhəri, 28 yanvar 2019-cu il**

**Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin kollegiyasının tərkibi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə”nin 5.7-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin kollegiya üzvlərinin sayı 7 nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədrinin müavini

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Aparatının rəhbəri

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi Aparatının turizm siyasəti və strategiyası şöbəsinin müdiri

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru

Azərbaycan Turizm Bürosunun İdarə Heyəti sədrinin müavini.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**